***MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ***
***САМООБРАЗОВАНИЕ УЧИТЕЛЯ***
***TEACHER SELF-EDUCATION***

*UOT 37:372.8*

# XARİCİ DİPLOMLARIN TANINMASI PROSEDURLARI

**Gülnurə Zamil qızı Mirzəyeva**
*SABAH Qrupları, Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistrantı*
**ORCID:** 0009-0004-3649-3000
**E-mail:** rzazadegulnure1309@outlook.com

***Açar sözlər:*** *Xarici diplomların tanınması, beynəlxalq təhsil, Lissabon Tanınma Konvensiyası, Bolonya prosesi, diplomların akkreditasiyası*
***Ключевые слова:*** *признание иностранных дипломов, международное образование, Лиссабонская конвенция о признании, Болонский процесс, аккредитация дипломов*
***Key words:*** *recognition of foreign diplomas, international education, Lisbon Recognition Convention, Bologna process, accreditation of diplomas*

Xarici diplomların tanınması, qloballaşan dünyada təhsilin standartlaşdırılması və beynəlxalq əməkdaşlığın artırılmasında, ən aktual məsələdən biridir. Müasir dövrdə insanlar daha geniş imkanlar və resurslar axtararaq, xarici ölkələrdə təhsil alır, bununla da beynəlxalq təcrübə qazanırlar. Diplomların tanınması, bu təcrübələrin müvafiq şəkildə qiymətləndirilməsi və milli təhsil sistemlərinə inteqrasiyası üçün zəruridir. Xarici diplomların tanınması, təkcə fərdlərin karyera imkanlarını genişləndirmək deyil, eyni zamanda ölkələrin iqtisadi inkişafına və beynəlxalq əlaqələrə müsbət təsir göstərir. Hal-hazırda, müxtəlif ölkələr arasında tələbə mübadiləsi proqramları, ikili diplom proqramları və beynəlxalq tədqiqat əməkdaşlığı kimi təşəbbüslər genişlənmişdir. Bu kontekstdə, xarici diplomların tanınması, ölkələr arasında təhsil mübadiləsini asanlaşdırır və beynəlxalq tələbələrin iş bazarına inteqrasiyasını sürətləndirir. Xarici təhsil sənədlərinin tanınmasının müasir cəmiyyətdə təsiri çoxşaxəlidir. Tələbələr, beynəlxalq təhsil alaraq yeni bilik, bacarıq və yanaşmalar əldə edirlər ki, bu da onların gələcək karyeralarına müsbət təsir edir. Xarici diplomların tanınmasında bir sıra beynəlxalq konvensiyalar əsas rol oynayır. Bu konvensiyaların ən mühümü Lissabon Tanınma Konvensiyasıdır. 1997-ci ildə imzalanmış bu konvensiya, Şimali Amerika və Avropa regionlarında xaricdən gələn ali təhsil ixtisaslarının tanınmasını tənzimləyən əsas hüquqi sənəddir. Lissabon Tanınma Konvensiyası iştirakçı ölkələrin ali təhsil diplomlarının tanınması ilə bağlı standartları müəyyən edir. Konvensiyanın əsas prinsipləri arasında, tanınmanın müvafiq təhsilin dərəcəsinə, xarici ölkənin təhsil sisteminə, diplomların keyfiyyətinə və tələblərinə əsaslanmasıdır. Bolonya hesabatlarında bu konvensiyanın ratifikasiyası, diplomların tanınması, inklüziv yanaşmalar və yeni müasir yanaşmalarla bağlı məsələlər diqqət mərkəzindədir. Konvensiya, tanınma prosesinin sadələşdirilməsi və şəffaflığını təmin etməyi hədəfləyir, bu da xarici diplomların tanınma sistemini daha da effektiv edir. Bu konvensiyanın prinsiplərinə riayət etmək, ölkələr arasında təhsil mübadiləsini asanlaşdırır və beynəlxalq əməkdaşlığı gücləndirir. Xarici diplomların tanınmasında digər mühüm sənədlərdən biri Bolonya hesabatlarıdır. Bolonya hesabatı 1999-cu ildə 29 Avropa ölkəsinin ali

təhsil sahəsinə cavabdeh nazirləri tərəfindən imzalanmışdır. Bu hesabat Avropa ali təhsil sisteminin beynəlxalq rəqabət qabiliyyətini artırmaq və iştirakçı ölkələr arasında ali təhsilin keyfiyyətini uyğunlaşdırmaq məqsədilə başladılan genişmiqyaslı bir təhsil islahatıdır. 2005-ci ildə Azərbaycanın bu islahata qoşulması ilə təhsil sistemində mühüm dəyişikliklər baş vermişdir.

UNESCO-nun 1984-cü ildə qəbul etdiyi "Təhsilin Tanınması, Qiymətləndirilməsi və Kvalifikasiya Sənədləri Üzrə Müqavilə" sənədi, müvafiq dövlətlərin diplom tanınma sistemini inkişaf etdirməyə yönəldilmiş tövsiyələr təqdim edir. Bu sənəd, təhsil sistemlərinin qarşılıqlı tanınmasını asanlaşdıraraq, beynəlxalq standartların yaradılmasına kömək edir. Milli qanunvericilik baxımından, Azərbaycanın xarici diplomların tanınması sahəsindəki qanunları, beynəlxalq öhdəliklərə uyğun olmalıdır. Azərbaycan Respublikası Təhsil Nazirliyinin verdiyi məlumatlara görə, ölkədə diplomların tanınmasına dair qanunvericilik, 2006-cı ildən etibarən aktiv şəkildə tətbiq edilməkdədir. "Təhsil haqqında" qanun, Azərbaycanın ali təhsil müəssisələrinin tanınma sistemini tənzimləyir. Azərbaycanın milli qanunvericiliyi, xarici diplomların tanınması üçün bir sıra prosedurlar müəyyən edir. Bu prosedurlar, müraciət şərtləri, tələb olunan sənədlər və müvafiq dövlət orqanlarının fəaliyyətini əhatə edir. Təhsildə Keyfiyyət Təminatı Agentliyi (TKTA) Azərbaycan qanunvericiliyində mühüm rol oynayan bir qurum olaraq, tanınma prosesinin həyata keçirilməsi və diplomların qiymətləndirilməsinə nəzarət edir. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyaların tanınması Qaydaları" 4-cü maddəsinin 4.1.1-ci yarımbəndi (*müvafiq kvalifikasiyaya dair sənədin əldə olunduğu təhsil müəssisəsinin fəaliyyət göstərdiyi ölkədə səlahiyyətli keyfiyyət təminatı qurumu tərəfindən akkreditasiyadan keçməsi və dövlət lisenziyasının olması*) tanınma üçün başlıca şərtlərdəndir. Qaydalara uyğun olaraq Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən tam orta, orta ixtisas təhsil pilləsi, bakalavriat (əsas (baza ali) tibb təhsili) və magistratura səviyyələri üzrə kvalifikasiyaların tanınması həyata keçirilir.

Tanınma prosedura, ümumilikdə, müraciət, qiymətləndirmə, ekspertiza, qərar vermə və nəticələrin bildirilməsi mərhələlərindən ibarətdir. Ekspertizanın yekununda müsbət rəylə qiymətləndirilmiş ərizəçilərə, müvafiq olaraq elektron şəhadətnamə təqdim olunur. Müraciət mərhələsində, namizəd şəxslər xarici diplomlarının tanınması üçün müvafiq dövlət orqanına müraciət edirlər. Bu mərhələdə, tələb olunan sənədlərin tam və düzgün təqdim edilməsi vacibdir. Müraciət zamanı tələb olunan sənədlər arasında diplomun özü, akademik transkript, təhsil müəssisəsinin təsdiqi, şəxsi məlumatlar və digər müvafiq sənədlər yer alır. Hər bir dövlət orqanı, müvafiq qanunvericiliyə uyğun olaraq, müəyyən sənədləri tələb edə bilər. Qiymətləndirmə mərhələsində, təqdim olunan sənədlər, müvafiq dövlət orqanı tərəfindən nəzərdən keçirilir. Bu mərhələdə, təqdim olunan diplomun, xarici ali təhsil müəssisəsinin akkreditasiyasının olub-olmadığı, diplomun müvafiq təhsil dərəcələrinə uyğunluğu və digər müvafiq meyarlar qiymətləndirilir. Ekspertiza mərhələsi, qiymətləndirmədən sonra gəlir. Bu mərhələdə, mütəxəssislər tərəfindən daha dərindən təhlil aparılır. Ekspertizanın məqsədi, təqdim olunan diplomun keyfiyyətini və müvafiq mütəxəssis standartlarına uyğunluğunu qiymətləndirməkdir. Tanınma prosesi nəticəsində, müvafiq dövlət orqanı, diplomun tanınmasına qərar verir. Qərar, müsbət və ya mənfi ola bilər. Müsbət qərar, diplomun tanınması üçün müvafiq şəhadətnamənin verilməsi ilə nəticələnir. Mənfi qərar isə, diplomun tanınmaması səbəbləri ilə birlikdə təqdim edilməlidir. Mənfi qərar verilməsinin isə bir neçə səbəbləri vardır ki, Akkreditasiyasız ali təhsil müəssisəsi; Təhsil

aldığı ölkənin ərazisində təhsilin normativ müddətindən az olması; Dövlət nümunəli olmayan diplom; Təhsil forması; Tədris yükünün normativdən az olması. Müsbət qərar verildikdə, tanınma şəhadətnaməsi, namizədin diplomunun tanınması ilə bağlı müvafiq hüquqi üstünlükləri təmin edir. Nəticələrin bildirilməsi mərhələsi, tanınma prosesinin tamamlanmasıdır. Bu mərhələdə, namizəd şəxsə, tanınma qərarının nəticələri, müvafiq sənədlərlə birgə təqdim olunur. Xarici təhsil kvalifikasiyaların tanınması, Azərbaycan Respublikasında kadr potensialının inkişafına, təhsil sisteminin qlobal tələblərə uyğunlaşdırılmasına və milli əmək bazarının beynəlxalq rəqabətə uyğun mütəxəssislərlə təmin olunmasına töhfə verir. Bu proses həm də müxtəlif ölkələrdən gələn tələbələrin Azərbaycan təhsil sisteminə inteqrasiyasını asanlaşdırır, beynəlxalq təcrübənin ölkə daxilində yayılmasına imkan yaradır. Beləliklə, xarici diplomların tanınmasının daha da təkmilləşdirilməsi, ölkəmizin insan kapitalının inkişafına, təhsil müəssisələrinin qlobal mühitdə rəqabət qabiliyyətinin artırılmasına və iqtisadi inkişafın sürətlənməsinə şərait yaradır. Gələcəkdə xarici diplomların tanınması prosesinin rəqəmsallaşdırılması, beynəlxalq standartlara uyğunlaşdırılması və əlaqəli ölkələrlə daha sıx əməkdaşlığın qurulması, Azərbaycan təhsil sisteminin davamlı inkişafını təmin edəcək və beynəlxalq əmək bazarında rəqabət qabiliyyətini artıracaqdır. Bu istiqamətdə atılacaq addımlar, xarici diplomların tanınmasında müasir yanaşmaların tətbiqi və effektivliyi təmin edərək, ölkəmizin təhsil sistemini qlobal səviyyədə tanınan və yüksək dəyərləndirilən bir mövqeyə çatdırmağa kömək edəcəkdir.

**Problemin aktuallığı.** Qloballaşmanın təsiri altında xarici təhsil diplomlarının tanınması günümüzdə təhsil sistemlərinin beynəlxalq əlaqələrdə uyğundur. Xarici diplomların tanınması, beynəlxalq əməkdaşlığı gücləndirir və milli təhsil sistemlərinin qlobal standartlara inteqrasiyasını asanlaşdırır. Bu səbəbdən problem, Azərbaycanın milli təhsil strategiyası çərçivəsində yüksək əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Bu məqalə, xarici diplomların tanınmasının beynəlxalq hüquqi çərçivəsini və Azərbaycanda tətbiq edilən normativ bazanı təhlil edərək elmi yeniliklər ortaya qoyur. Lissabon Tanınma Konvensiyası və Bolonya prosesinin Azərbaycanda tətbiqi kontekstində bu problemin hüquqi, təşkilati və institusional əsasları elmi baxımdan dəyərləndirilmişdir.

**Problemi praktiki əhəmiyyəti və tətbiqi.** Xarici təhsil sənədlərinin tanınması, ölkədə kvalifikasiyalı işçi qüvvəsinin formalaşmasına və əmək bazarının tələblərinə cavab verən peşəkar kadrların yetişdirilməsinə kömək edir. Bu problem, xarici təcrübənin milli təhsil sisteminə inteqrasiyası və ölkədəki işəgötürənlərin ixtisaslı kadr təminatının gücləndirilməsi baxımından xüsusi praktiki əhəmiyyətə malikdir.

Bu problem üzrə yaradılmış hüquqi mexanizmlər və tətbiq olunan prosedurlar, Azərbaycanın milli təhsil sistemində tətbiq olunur və Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən idarə edilir. Xarici diplomların tanınması prosedurlarının rəqəmsal platformalarda həyata keçirilməsi, müraciət prosesini daha sürətli və şəffaf edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2006). *Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu*. Bakı: Təhsil Nazirliyi Nəşriyyatı.

2. UNESCO. (1984). *Recognition of Studies, Diplomas and Degrees in Higher Education in the Asia and Pacific Region*. Paris: UNESCO.

3. Council of Europe. (1997). *Lisbon Recognition Convention*. Strasbourg: Council of Europe Publishing.

4. European Commission. (1999). *The Bologna Declaration on the European Space for Higher Education: An Explanation*. Brussels: European Commission.

5. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli, 2306 nömrəli Fərmanı. *Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları*.

6. Təhsildə Keyfiyyət Təminatı Agentliyi. (2024). *Xarici diplomların tanınması üzrə təlimat və prosedurlar*. Bakı: TKTA Nəşriyyatı.

7. European Association for Quality Assurance in Higher Education (ENQA). (2005). *Standards and Guidelines for Quality Assurance in the European Higher Education Area (ESG)*. Helsinki: ENQA.

8. Altbach, P. G., Reisberg, L., & Rumbley, L. E. (2009). *Trends in Global Higher Education: Tracking an Academic Revolution*. UNESCO Publishing.

9. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2023). *Azərbaycan Respublikasında Təhsil İslahatları və Diplomların Tanınması*. Bakı: Təhsil Nazirliyi.

10. European Higher Education Area. (2020). *Implementation of Bologna Process Reforms and Recognition of Qualifications*. Brussels: EHEA Secretariat.

**Г.З. Мирзаева**

**Порядок признания иностранных дипломов**
**Резюме**

В данной статье анализируется процесс признания иностранных дипломов и его правовая основа в Азербайджанской Республике. Поскольку количество людей, обучающихся за рубежом, увеличивается под влиянием глобализации, признание полученной ими квалификации в национальной системе образования приобрело большую актуальность. В статье подчеркивается положительное влияние признания иностранных дипломов на международное сотрудничество, развитие человеческих ресурсов и экономическую среду страны. Основное внимание уделяется роли международных соглашений, таких как Лиссабонская конвенция о признании и Болонский процесс, в признании иностранных образовательных квалификаций в Азербайджане. Кроме того, в статье рассматривается деятельность Агентства по обеспечению качества образования и исследуются правовые и институциональные структуры процесса признания. В результате в статье подчеркивается важность применения стратегий оцифровки и международного сотрудничества для дальнейшего совершенствования процесса признания.

**G.Z. Mirzayeva**

**Procedures for recognition of foreign diplomas**

**Summary**

This article analyzes the process of recognition of foreign diplomas and its legal basis in the Republic of Azerbaijan. As the number of people studying abroad increases due to the influence of globalization, the recognition of their obtained qualifications in the national education system has gained great relevance. The article emphasizes the positive effects of the recognition of foreign diplomas on international cooperation, the development of human resources and the economic environment of the country. The main focus is on the role of international agreements such as the Lisbon Recognition Convention and the Bologna process in the recognition of foreign educational qualifications in Azerbaijan. In addition, the article discusses the activities of the Agency for Quality Assurance in Education and examines the legal and institutional structures of the recognition process. As a result, the article highlights the importance of applying digitization and international cooperation strategies to further improve the recognition process.

**Redaksiyaya daxil olub:** 25.11.2024